


11 mart 2022-ci il tarixdə Bakı şəhəri akad. Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində Beynəlxalq qlaukoma həftəsi çərçivəsində "Qlaukomanın müasir diaqnostikası və müalicəsi" adlı elmi-praktik konfrans keçirilmişdir. Akad. Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktor müavini, konfransın təşkilat komitəsinin sədri t.e.d. H.Namazova giriş sözü ilə konfransı açıq elan etmişdir.



Konfransda Azərbaycan və Türk oftalmoloqları – t.ü.f.d. Həsənova N.A., Banu Solmaz, Həsənov C.V., t.ü.f.d. Əfəndiyeva M. E., t.ü.f.d. Məcidova. S.R., t.ü.f.d. Əliyev X.D., Ilgaz Yalvac, t.ü.f.d. Məmmədova G.Ş., Pirmətov M.N., İbrahimova S.N., Quliyeva S.Ş., Feyziyeva K.V. tərəfindən qlaukomanın klinikası, müasir diaqnostika üsullarına, eləcə də konservativ və cərrahi müalicəsinə həsr olunmuş maraqlı kliniki hallar, tematik çıxışlar, məruzələr təqdim olunmuşdur.

11 марта 2022 года в городе Баку в Национальном Центре Офтальмологии имени акад. Зарифы Алиевой в рамках Международной недели глаукомы состоялась научно-практическая конференция на тему «Современная диагностика и лечение глаукомы». Конференцию со вступительной речью открыла председатель оргкомитета, заместитель директора Национального Центра Офтальмологии имени акад. Зарифы Алиевой д.м.н. И.Намазова.



Офтальмологи Азербайджана и Турции – д.ф.п.м. Гасанова Н.А., Бану Солмаз, Гасанов С.В., д.ф.п.м.Эфендиева М.Э., д.ф.п.м. Меджидова С.Р., д.ф.п.м. Алиев Х.Д., Ильгаз Ялвач, д.ф.п.м. Мамедова Г.Ш., Пирметов М.Н., Ибрагимова С.Н., Гулиева

С.Ш., Фейзиева К.В. представили интересные клинические случаи, тематические выступления, доклады, посвященные клинике, современным методам диагностики, а также консервативному и хирургическому лечению глаукомы.

March 11, 2022 in the city of Baku at the National Centre of Ophthalmology named after acad. Zarifa Aliyeva was held a scientific-practical conference on the topic "Modern diagnostics and treatment of glaucoma" within the framework of the International Glaucoma Week. The conference with an introductory speech was opened by the chairman of the organizing committee, deputy director of the National Centre of Ophthalmology named after acad. Zarifa Aliyeva MD I. Namazova.

Ophthalmologists of Azerbaijan and Turkey - Ph.D. Gasanova N.A., Banu Solmaz, Gasanov S.V., Ph.D. Efendieva M.E., Ph.D. Medjidova S.R., Ph.D. Aliev Kh.D., Ilgaz Yalvach, Ph.D. Mamedova G.Sh., Pirmetov M.N., Ibragimova S.N., Gulieva S.Sh., Feyzieva K.V. presented the interesting clinical cases, thematic presentations, reports on the clinic, modern diagnostic methods, as well as conservative and surgical treatment of glaucoma.





## Professor P.İ.Musayev-Qəlbinurun 70-illik yubileyinə

Paşa İsmayıl oğlu Musayev 30 mart 1952-ci ildə Şəmkir rayonunda anadan olub. 1968-ci ildə orta məktəbi medalla bitirdikdən sonra, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub və 1974-cü ildə təhsilini tamamlayaraq Gəncə və Bakı şəhərlərində oftalmoloq kimi fəaliyyətə başlayıb. 1978-81-ci illərdə S.M.Seçenov adına Moskva Tibb İnstitutunun aspiranturasında təhsil alıb, 1981-ci ildə akad. M.M.Krasnovun rəhbərliyi altında "Gözün buynuz qişasının bulyoz distrofiyasının yeni cərrahi üsulla müalicəsi" mövzusunda namizədlik dissertasiyasını, 1987-ci ildə isə Moskva şəhərində "Gözün yarımkeçirici baryerləri" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib. O, 1981-ci ildə Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasına assistent, 1988-ci ildə professor vəzifəsinə seçilib, 1991-ci ildən isə həmin universitetin oftalmologiya kafedrasının müdiri vəzifəsində çalışır.

2000-ci ildə prof. P.İ.Musayev və həmkarları tərəfindən işlənib-hazırlanmış yeni effektiv antivirus preparatı "Aktipol" Dünyanın müxtəlif ölkələrinin Farmakoloji Komitələri tərəfindən təsdiq olunmuşdur. 2002-ci ildə Brüsseldə 51-ci Ümumdünya İxtiralar salonunda "Brüssel Evrika 2002" sərgisində "Oftalmologiyada yeni dərman preparatı "Aktipol"un kəşfi böyük Qızıl Medalla və Belçika Maliyyə Nazirliyinin xüsusi prizinə layiq görülmüşdür. 2002-ci ildə "Aktipol" preparatının çoxşaxəli təsir mexanizminə aid yeni açılmış xüsusiyyətləri 5 Beynəlxalq patentə layiq görülmüşdür.

Prof. P.İ.Musayev əmək fəaliyyətinin başlandığı dövrdən indiyədək 30 000-dən çox cərrahi əməliyyat aparmışdır. Orqan və toxuma transplantasiyasında yeni elmi istiqamət müəyyənləşdirilməsi, qlaukomanın cərrahi müalicəsində "Musayev üsulu"nun tətbiq olunması, onun elm sahəsində qazandığı ən yüksək nailiyyətlərdir.

Onun rəhbərliyi altında 4 doktorluq, 19 namizədlik dissertasiyası müdafiə olunmuşdur. Professor P.İ. Musayev 329 nəşr olunmuş elmi işləri, monoqrafiyaları, tələbələr və həkimlər üçün "Göz xəstəlikləri" dərsliyinin, 7 dərs vəsaitinin, 1 oftalmologiya atlasının, 4 elmi monoqrafiyanın, 11 elmi ixtiranın müəllifidir. Dünyanın bir sıra dövlətlərində işgüzar səfərlər və elmi konqreslərin iştirakçısı, məruzəçisi olmuş, mühazirələr oxumuşdur.

Prof. P.İ.Musayev 1987-ci ildən SSRİ Yazıçılar İttifaqının, 1992-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. O, bir çox dillərdə çap olunmuş 5 şeir kitabının, 2 romanın, 3 esseler toplusunun müəllifidir.

Prof. P.İ.Musayev 1989-cu ildə Azərbaycan Alimlər İttifaqı İdarə Heyyətinin, 1994-cü ildə Amerika Oftalmologiya Akademiyasının həqiqi Üzvü, 1996-cı ildə Azərbaycan üzrə Nobel İnformasiya Mərkəzinin nəzdində Fiziologiya bölməsi üzrə ekspert, 1997-ci ildə Amerika və Dünya Türk Cumhuriyyətləri Oftalmoloji Birliyinin idarə heyyətinin, 2005-ci ildə "Tibb jurnalı"nın Rəyasət heyyətinin üzvü seçilmişdir. O, həmçinin akad. Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin nəzdində Dissertasiya Şurasının üzvüdür.